# “Bir qəlbi isidən odun yoxdusa...”



Gülayə

**Mariya Svetayevaya məxsus fikirdi ki, əsil sənət əsəri böyük gərilmənin məhsuludur. Amma fikrimizcə, bu məsələnin bir özgə tərəfi də var ki, əsl sənət əsəri daha çox kövrəkliyin, zərifliyin, bir nanə yaprağı titrəyişinin, daha çox da müşahidənin məhsuludur. Bu deyilənlər tanınmış şair Musa Ələkbərlinin yaradıcılıq dünyasını şərtləndirir. Zaman keçir, ədəbi zövqlər, baxışlar dəyişir, bu məkana müxtəlif “izmlər”, yol-yolağalar daxil olur. Ancaq mənim yaşıdım olan nəslin gözləri hələ də kitab, qəzet-jurnal səhifələrində Musa Ələkbərlinin bu unudulmaz misralarının növbəti gəlişmələrini, könül meyvələrini arayıb-axtarır:**



*Götür gözlərimi apar özünlə -*
*Sənin yoxluğunu görə bilməyim.*

Ədəbi müstəvidə Musa Ələkbərli çatdığı ocağa yaxşı yana bilən bir söz adamıdı. O, gəlib çıxmayan, hələ də yolunu gözlədiyi, sən demə, heç özü də bilmədən keçmişdə qalan gələcəyinin poetik ovqatını söz-söz, misra-misra şeirə gətirməyin dilini yaxşı bilir. “Sənin baxışların, mənim ürəyim bulaq suyundan da durudur, gözəl” əminliyi ilə yazıb-yaradan şairin səmimiyyəti elə ilk misradanca xəyalı alıb aparır. O yerə ki, Məkkədə şeytanı daşlayan gözəlin həsrəti ürəkdə daşa çevrilir. O yerə ki, Kəbə evinin başına dolanan könül dostunun başına dolanmaq keçir könüldən. Musa Ələkbərli “Gözündə lalə daşqını, sinəsində lalə qiyamı” daşıyan halal bir söz adamıdı. Və bütün ilahi vergili söz adamları kimi o da bütün ömrünü ilk məhəbbət çağında yaşayanlardandır. Bunsuzsa ədəbi məkanda sonacan duruş gətirmək, ömr etmək bütün müşküllərin ən müşkülüdü. Oxucu qəlbi bütün səmimiyyətilə bu kövrək misralara həssas və etinalıdı:

*Yazırsan, pozursan, kimə nə xeyri,*
*Bir qəlbi isidən odun yoxdusa.*
*Sevgi məktubunda dörd misra şerin,*
*Bir qız dodağında adın yoxdusa!..*

Bu, həmin böyük nigarançılıqdı ki, böyük şairimiz Səməd Vurğunu:

*Yoxsa bir sözümü, bircə kəlməmi*
*Aşıqlar sazında çalmayacaqdır.*
*Yoxsa bir misram da, bircə sözüm də*
*Ellərin yadında qalmayacaqdır.*

deyə qayğılandırırdı. Bu həm də ilahi, əbədiyaşar söz önündəki məsuliyyət, hesabat çabasından doğan bir yaşamdır. Musa Ələkbərli həmişə bu məsuliyyətlə, etina hissi ilə yazıb-yaradan şairlərdəndir.

Musa adamı içdən göynədən, içdən düşündürən duyğuların yazarıdı. “Bir nöqtədə yeri - göyü, bir zərrədə dünyanı əks etdirməyin” təcrübəli onun əksər şeirlərinin boyuna biçilib. Muncuqtək dağılmış düşüncələrin bir sapa düzülə bilinmədiyi yerdə M.Ələkbərin şeirləri doğma, kövrək duyumu ilə əlbəəl yada düşür. Onun yozumunda ilk baxışda hirs, hikkə, sükut kimi göz önündə dayanan könül dostunu səsləsən bir səsə-sorağa dönməyi olur və elə bu durumuyla da gözəldən-gözəl görünür.

Ta mətbuat səhifəsinə çıxarıldığı gündən bəri M.Ələkbərlinin

*Bənövşə baxışlı, bənövşə gözlü,*
*Bənövşə duruşlu çiçəyim mənim...*
*Ay sözü sükutlu, sükutu sözlü*
*Dolan, doluxsunan ürəyim mənim*

misraları hər bir sevdalı könülün daxili dünyasında xəfif bir tel, söhbətdaş, yol yoldaşı kimi ömür etməkdədi, Musa Azərbaycan dilinin şəhdi-ləbini, məna çalarlarını, ədasını və polad məntiqini bütün incəliklərinə qədər şeirdən-sözdən keçirə bilən bir qələm adamıdır. Hərdən oxucuya elə gəlir ki, onun qələmindən çıxan hər bir şeir bütün parlaqlığı ilə açılmış gül ləçəkləri kimidir və ani bir diqqətsizlikdən, etinasızlıqdan bu ləçəklər öz saplağından qopub tökülə bilər. Onun dəyər verdiyi hər bir predmetə nə olubsa, nə gəlibsə sevgidən gəlib:

*Köksümün altında tanış bir ağrı,*
*Az qalır çatlasın yerin də bağrı.*
*O qız əllərinə yer tapa bilmir,*
*O qız bulud kimi qaralıb-dolub,*
*Ona nə olubsa sevgidən olub.*

Bütün sevdiklərini sevgi, istək müstəvisindən çəkənlərin xatiri M.Ələkbərli poeziyası üçün əzizdən əzizdi. Onun şair qəlbi ağrılar keçənə kimi yanıb-yaxılmağın tale ortağıdı. Yaxşı bilir ki:

*Şair şairdirsə tapdığı ruzi*
*Ağzında tam verməz sevgi olmasa.*

Zaman ötür, zövqlər, istəklər dəyişir, ancaq Musa Ələkbərli poeziyasının lirik ovqatına köklənmiş oxucuların yaddaşı hardasa doyumsuz bir maraqla Musanın şeir dünyasında lövbər salıb dayanır.

Usanmadan yol gözləyir, yaddaş və göz axtarışı bitmir ki, bitmir.